

*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
*Heydər Əliyev*

*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 22 (417) | 12 dekabr 2014-cü il | Qiyməti 50 qəpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**


# 12 dekabr ümummilli lider Heydər Əliyevin anım günüdür



# İlham Əliyev Serbiya parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev Serbiya Respublikasının parlamentinin sədri xanım Maya Qoykoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan ilə Serbiya arasında dostluq münasibətlərinin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı siyasi əlaqələrimizin yüksək səviyyəsindən məmnunluğunu ifadə etdi və bunun iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi üçün yaxşı zəmin yaratdığını bildirdi.

Xanım Maya Qoykoviç ölkəsinin iqtisadi əməkdaşlığın genişləndirilməsində və Azərbaycanın Serbiya iqtisadiyyatına investisiya qoymasında maraqlı olduğunu bildirdi. Parlament sədri ölkələrimizin beynəlxalq təşkilatlarda da uğurlu əməkdaşlıq etdiyini dedi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü əsasında həllini dəstəklədiyini deyən xanım Maya Qoykoviç Kosovo ilə bağlı Azərbaycanın mövqeyinə görə minnətdarlığını bildirdi. Parlament sədri ölkəsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin abidəsinin ucaldılmasını, eləcə də dahi bəstəkar Üzeyir Hacıbəylinin Serbiyada, Bakıda isə serb xalqının böyük oğlu Nikola Teslanın abidələrinin açılışını ölkələrimiz arasında dostluq əlaqələrinin yaxşı göstəricisi kimi dəyərləndirdi. O, Serbiyada məscid və kilsənin əsaslı şəkildə yenidən qurulmasına və bu yaxınlarda daşqınlar zamanı ilk ölkələrdən biri olaraq Azərbaycanın göstərdiyi yardıma görə serb xalqı və şəxsən öz adından Prezident İlham Əliyevə minnətdarlıq etdi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Serbiyanın mövqeyini yüksək qiymətləndirən Prezident İlham Əliyev Azərbaycanın da Kosovo ilə əlaqədar Serbiyanın mövqeyini dəstəklədiyini bir daha vurğuladı.

Görüşdə ölkələrimiz arasında nəqliyyat, investisiya qoyuluşu, energetika və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

## Ağstafa rayonunda ekoloji vəziyyətin yaxşılaşdırılması, həmçinin yol kənarlarının abadlaşdırılması, inzibati və sosial binaların və müəssisələrin ərazilərində abadlıq işlərinin mütəmadi aparılması və yaşıllıqların mühafizəsi işinin təmin edilməsi barədə

### *Ağstafa rayon icra hakimiyyəti başçısının*

# SƏRƏNCAMI

Ağstafa rayonunda ekoloji vəziyyətin yaxşılaşdırılması, həmçinin qeyri-meşə fondu torpaqlarında, o cümlədən magistral avtomobil yollarının mühafizəsi zolaqlarında yaşıllıqların salınması, bərpası və becərilməsi sahəsinin davamlı inkişafını təmin edən idarəetmə sisteminin təkmilləşdirilməsi, yol kənarlarının abadlaşdırılması, inzibati və sosial binaların və müəssisələrin ərazilərində abadlıq işlərinin mütəmadi aparılması və yaşıllıqların mühafizəsi işinin təmin edilməsi və gənc nəsilə, təbiətə qayğı göstərməyi aşılamaq və mövcud yaşıllıqların qorunub saxlanması və Azərbaycan Respublikasında yaşıllıqların salınması sahəsində idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqqında Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2008-ci il tarixli sərəncamının Ağstafa rayonunda icrasını təmin etmək məqsədi ilə

**Qərara alıram**

1."Abadlaşan Ağstafa uğurunda" Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

2.Tədbirlər Planının icrasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın.

***Komissiyanın sədri***

Ramiz Tatarov

Rayon İcra hakimiyyəti başçısının birinci müavini

**Komissiyanın üzvləri:**

Lalə Eyyubova

*Ağstafa rayonu İcra hakimiyyəti başçısının müavini-İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri*

Aydın Hacıyev

*Ağstafa rayonu İcra hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri*

Ramız İmanov

*Ağstafa rayon İcra hakimiyyəti başçısının müavini-Aqrar məsələlər şöbəsinin müdiri*

Müşfiq Hüseynov

*Hüquq şöbəsinin müdiri*

Şaiq Qurbanov

*Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri*

Yasin Əfəndiyev

*Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri*

Kamran Abbasov

*İnformasiya təminatı və təhlili sektorunun müdiri*

Zoya Nəbiyeva

*Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru*

Feyruz Həsənov

*Gənclər və İdman İdarəsinin rəisi*

4. Komissiyanın sədri, rayon İcra hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarova tapşırılsın ki:

Sərəncamla təsdiq edilmiş Tədbirlər Planının icrasını ciddi nəzarətə götürsün və tədbirlərin icrası barədə müntəzəm olaraq rayon İcra hakimiyyəti başçısına məlumat versin;

Layihənin icrası müddətində zərurət yarandıqca Tədbirlər Planına müvafiq əlavələr və dəyişikliklər edilməsinə dair təklifləri hazırlayaraq təsdiq üçün təqdim etsin.

5. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

## “Abadlaşan Ağstafa uğrunda ” adlı layihənin keçirilməsi ilə əlaqədar

# TƏDBİRLƏR PLANI

| S/S | Tədbirin adı | İcra Vaxtı | İcraçı | İcraya nezarət |
|---|---|---|---|---|
| 1 | Sərəncamın və tədbirlər planının mətninin “Ağstafa ” qezetində dərc edilməsi, internet saytlarında və sosial şəbəkələrdə yayılması | Mütəmadi | İbrahim Əliyev Kamran Abbasov | Lalə Eyyubova |
| 2 | Ağac əkmək üçün yerlərin təyini | Noyabrın sonunadək | Sənan Mustafayev Ramiz İmanov | Ramiz Tatarov |
| 3 | Əkilən ağacların seçilməsi | Noyabrın sonunadək | Hacı Qəhrəmanov | Ramiz İmanov |
| 4 | “Abadlaşan Ağstafa uğrunda ” adlı layihənin şüarlarının hazırlanması | Noyabrın sonunadək | Gülgün Kərimov Nəriman Hacıyev | Lalə Eyyubova |
| 5 | Mərhələlər üzrə müəssisələri fərqləndirmək | Hər mərhələnin sonunda | Komissiya üzvləri | Ramiz Tatarov |
| 6 | “Abadlaşan Ağstafa uğrunda ” adlı layihəsi barədə uşaqların maarifləndirilməsi üçün orta ümumtəhsil müəssisələrinin müəllimlərinə treninq və seminarların keçirilməsi, söhbətlərin aparılması | Mütəmadi | Fərhad Vəliyev | Lalə Eyyubova |
| 7 | Ağac əkini ilə bağlı maarifləndirici tədbirlərin nümayəndəliklərdə keçirilməsi | Mütəmadi | Şaiq Qurbanov | RamizTatarov |
| 8 | Layihə çərçivəsində həftənin şənbə günləri əkilmiş ağaclara qulluq olunması, görülmüş işlər barədə hesabatların aidiyyəti şöbələrə və ümumiləşdirilərək rəhbərliyə təqdim edilməsi (ağacların ətrafının təmizlənməsi və qulluq olunması barədə keçirilən ərazinin əvvəlki və sonrakı şəkillərinin hesabata əlavə edilməsi) | Hər həftənin şənbə günü | Bütün müəssisələr | RİH başçısının müavinləri |
| 9 | “Abadlaşan Ağstafa uğrunda ” adlı layihənin gedişinin kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə işıqlandırılması | layihənin icrası müddətində | Lalə Eyyubova Kamran Abbasov | Ramiz Tatarov |
| 10 | “Abadlaşan Ağstafa uğrunda ” adlı layihəsi | layihənin icrası | Şaiq Qurbanov | Ramiz Tatarov |

***Tədbirlər planı Rayon icra hakimiyyəti başçısının sərəncamı ilə təsdiq edilmişdir***

## Heydər Əliyev ideyaları əbədiyaşardır

Müstəqil Azərbaycanın hər tərəfində olduğu kimi, Ağstafada da ümummilli lider Heydər Əliyevin əziz xatirəsini anma mərasimləri keçirilir. Rayonun bütün idarə və müəssisələrində, təhsil, mədəniyyət və səhiyyə ocaqlarında ulu öndərin vəfatının on birinci ildönümü iləəlaqədar tədbirlər keçirilir, Heydər Əliyevin xatirəsi ehtiramla yad olunur, onun abidəsi önünə tər çiçək dəstələri qoyulur. Rayon mərkəzi xəstəxanasında, mədəniyyət şöbəsində, ümumtəhsil məktəblərində, tikinti vəəmək kollektivlərində keçirilən anım mərasimlərində ulu öndər Heydər Əliyevin vətən və xalq qarşısındakı tarixi xidmətlərindən, müstəqil ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunda müstəsna rolu qeyd olunur, onun əbədiyaşar ideyalarının hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirilir.

# Problemlər təhlil olundu



Rayon icra hakimiyyətinin başçısı M. Quliyev Qırılı kənd orta məktəbinin həyətində kənd sakinləri ilə görüş keçirmişdi. Görüşdə kəndin problemləri geniş təhlil olundu və həmin problemlərin aradan qaldırılması, kənd əhalisinin sosial durumunun daha da yaxşılaşdırılmasıüçün təkliflər irəli sürüldü.

Rayon icra hakimiyyətinin başçısı kənd sakinləri qarşısında geniş nitq söylədi və son bir neçə ildəölkəmizin sosial-iqtisadi həyatında baş verən dəyişikliklərdən məlumat verdi.

M.Quliyev Qırılı kəndinin sosial durumu barədə ətraflı danışdı və yaxın vaxtlarda Qırılı kəndində görülməsi nəzərdə tutulmuş tikinti-quraşdırma, abadlıq işlərindən söhbət açdı. O, qeyd etdi ki, bu ilin sonunadək kəndin qazlaşdırılması tam başa çatdırılacaq və hər bir mənzildə, o cümlədən yeni salınmış məhəllələrdə mavi yanacaq alovlanacaqdır.

İcra başçısı yığıncaq iştirakçılarını narahat edən daha bir neçə problemə toxundu və göstərdi ki, 2015-ci ildə Qırlıda yeni məktəb binasının, uşaq bağçasının, mədəniyyət evinin tikilməsi üçün geniş planlar hazırlanmış və bu planların bir çoxunun reallaşmasıüçün konkret işlər görülür. Ən başlıcası isə Köçəsgər, Eynallı və Qırılı yolunun bərpası və abadlaşmasıüçün layihə-smeta sənədləri hazırlanmış, yaxın günlərdə bu böyük işin başlanılmasına start veriləcəkdir.

Rayon icra hakimiyyətinin başçısının dərin məzmunlu çıxışı yığıncaq iştirakçıları tərəfindən böyük rəğbətlə qarşılandı və kənd sakinləri Dilarə Məmmədova, Azadə Bayramova çıxış edərək onlara göstərilən qayğıya görəölkə başçısı cənab İlham Əliyevə və rayon rəhbərliyinə dərin minnətdarlıqlarını bildirdilər.



***İ.Əliyev***

## 23 dekabr bələdiyyə seçkiləri günüdür

# Təşviqat qrupu Ağstafada

Azərbaycan Respublikası bələdiyyələrinə seçkilər artıq mühüm bir mərhələyə qədəm qoymuşdur. Dekabrın 1-dən bələdiyyələrə namizədlərin qeydə alınması başa çatmış, təbliğat-təşviqat kampaniyasina başlanmışdır. Yeni Azərbaycan Partiyası mərkəzi aparatının təşviqat qrupu bununla əlaqədar Ağstafada olmuşdur. Təşviqat qrupunun üzvləri əvvəlcə YAP rayon təşkilatının qərargahında və Ağstafa dairə seçki komissiyasında olmuş, hakim partiyadan yerli bələdiyyələrə qeydə alınmış namizədlərin sənədləri ilə tanış olmuşlar.

Sonra "Sezar" mədəniyyət və istirahət ocağında bələdiyyə üzvlüyünə namizədlərlə və Ağstafa seçiciləri ilə görüş keçirilmişdir. Görüşü giriş sözü ilə YAP idarə heyətinin məsul işçisi Rəfail Gülməmmədov açmış, bu ilki bələdiyyə seçkilərinin müstəqil dövlətimizin sosial-mədəni və siyasi sahədə mühüm əhəmiyyətindən danışmışdır. O, həmçinin qeyd etmişdir ki, bu ilki seçkilər xalq özünüidarəetmə orqanlarının yubiley seçkiləri hesab oluna bilər. Çünki bu il bələdiyyə orqanlarının yaradılmasının 15 illiyi tamam olur.

Görüşdə YAP idarə heyətinin üzvü, millət vəkili, professor Əhməd Vəliyev, Yeni Azərbaycan Partiyasının orqanı olan "Səs" qəzetinin redaktoru Bəhruz Quliyev çıxış edərək bələdiyyə seçkilərinin çox mühüm əhəmiyyətindən, aparılan hazırlıq işlərindən, seçki qanunvericiliyinin əsas müddəalarından söhbət açmışlar. Onlar həmçinin bələdiyyə namizədlərinə və seçicilərə dəyərli tövsiyələrini bildirmişlər.

Təşviqat qrupunun üzvləri görüş iştirakçılarının suallarını da cavablandırmışlar.

# Məktəblərdə görüşlər

Rayon İcra Hakimiyyətinin başçısı yanında şuranın son iclasında icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevin tapşırığına əsasən rayon təhsil və rayon mədəniyyət şöbəsi ilə birlikdə bir sıra məktəblərdə müəllim və şagird kollektivləri ilə səmərəli görüşlər keçirdik. Görüşlərdə həm müəllimlərlə, həm də şagirdlərlə söhbətlərimiz əsasən məktəbdənkənar tədbirlərə, ədəbi-bədii kitabların mütaliəsinə şagirdlərin marağının artırılması üzərində qurulmuşdu.

Son vaxtlar məktəb şagirdlərinin, hətta bəzi müəllimlərin bədii kitablara həvəsinin azalması, yerli şair və yazıçılarımıza belə laqeyd münasibətləri narahatlıq doğururdu. Bu mövzuda məktəblərdə apardığımız söhbətlər müsbət nəticələr verdi. Görüş keçirdiyimiz məktəblərdə rayon mərkəzi kitabxanasının təşkil etdiyi kitab sərgiləri də bu sahədə işimizə kömək oldu. Həmin şagirdlərdə klassiklərimizlə yanaşı, yerli şair və yazıçılarımızın da əsərləri nümayiş etdirilmişdir. Şagirdlər də, müəllimlər də sərgidəki kitablarla yaxından maraqlanmışlar.

Tatlı, Göycəli, Həsənsu kəndlərindəki tam orta məktəblərində keçirdiyimiz görüşlər çox faydalı və səmərəli olmuşdur. Əminəm ki, bu görüşlərdən sonra şagirdlərin sinifdənkənar ədəbi-kütləvi tədbirlərə, bədii kitablara marağı xeyli artacaqdır.

***F.Heydərli,***
***Rayon Ağsaqqallar Şurasının sədri***

# Mənə yenidən etimad göstərilsə

Ötən hər gün bizi ölkəmiz üçün tarixi günlərdən biri olan bələdiyyə seçkilərinin keçiriləcəyi günə yaxınlaşdırır. Hamıya yaxşı məlumdur ki, bu il dekabr ayının 23-də növbəti bələdiyyə seçkiləri keçiriləcək və həmin gün seçicilər öz səslərini demokratik qaydada istədikləri namizədə verəcəklər. Bu siyasi kompaniyaya rayonun bütün yaşayış məntəqələrində olduğu kimi, Xətai kəndində də ciddi hazırlıq görülür.



Kənd bələdiyyəsinin sədri Şahin Hüseynov əməkdaşımızla söhbət zamanı seçkilərə hazırlığın vəziyyətindən danışaraq bildirdi:

- Əvvəlcə onu qeyd edim ki, bu ilki seçkilərdə mən yenidən öz namizədliyimi irəli sürmüşəm. Özüm haqqımda onu bildirmək istəyirəm ki, 1952-ci ildə bu kənddə anadan olmuşam. Ali təhsilli iqtisadçıyam. Əmək fəaliyyətinə sovet dövründə kəndimizdəki sovxozda başlamışam. Briqadir, mühəndis, xəzinədar və sovxoz direktoru vəzifələrində çalışmışam. 2010-cu ildən isə kənd bələdiyyəsinin sədriyəm.

Elə əvvəlki dövrlərdə də və indiki vaxtda da çalışmışam ki, kəndimiz üçün yaddaqalan bir iş görüm, kənd camaatının sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində əsaslı bir tədbirin həyata keçirilməsinə nail oluruq.

Bu gün kəndimizdə 6000-dən çox əhali yaşayır. Onların əsas məşğulluğu heyvandarlıq və əkinçilikdir. Əvvəllər isə kəndin iqtisadiyyatının əsasını üzümçülük təşkil edirdi. İndi isə demək olar ki, az bir sahədə üzüm bağı qalmışdır.

Bələdiyyə sədri kimi mənim əsas vəzifələrimdən biri və mən deyərdim ki, ən əsası pay torpaqlarının suvarılmasını təmin etməkdən, bol məhsul yetişdirilməsinə nail olmaqdan ibarət olmuşdur. Ötən seçki dövründə demək olar ki, bu istiqamətdə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinə qismən də olsa nail olmuşuq.

Fürsətdən istifadə edib son iki ildə kəndimizdə görülmüş əsaslı tikinti və abadlıq işlərini qeyd etmək istərdim. Aşağı Göycəli, Yenigün, Xətai yolunun yenidən qurulması, həmin yola keyfiyyətli asfalt örtüyün salınması kəndimizin simasını xeyli dəyişmişdir.

Yenigün kənd orta məktəbində istilik sistemində olan problem tam aradan qaldırılmışdır. Yeni məhəllələrə su xətti çəkilmiş, bir ədəd artezian quyusu qazılmışdır. Bütün bunlar hamısı möhtərəm prezidentimiz cənab İlham Əliyevin kənd əməkçilərinə göstərdiyi diqqət və qayğı sayəsində həyata keçirilmişdir.

Rayon rəhbərliyinin yerlərdə ictimaiyyətlə keçirdiyi görüşlərin səmərəliliyini qeyd edərək bildirmək istərdim ki, bu kimi tədbirlər əhali tərəfindən çox rəğbətlə qarşılanır. Rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyevin kəndimizdə keçirdiyi görüşlərdə əhali heç nədən çəkinmədən öz problemlərini ona bildirmiş və nəticədə hamının ürəyindən olan bir çox işlər görülmüşdür. Biz həmin görüşlərdə kəndimizdəki kitabxananın, uşaq bağçasının yararsız vəziyyətdə olmasını qeyd etmiş, pay torpaqlarını suvarmaq üçün mövcud olan su kanalının yenidən qurulmasını rayon rəhbərliyindən xahiş etmişik. Əgər mən yenidən bələdiyyə sədri seçilrəmsə, sözsüz ki, həmin problemlərin və kəndimizin əhalisini narahat edən digər problemlərin həll edilməsi üçün bütün qüvvəmi sərf edəcəyəm.

***İ. Əliyev***

# Beynəlxalq Əlillər Günü münasibətilə

Ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ildən Beynəlxalq Əlillər gününün müstəqil respublikamızda da qeyd olunması qərara alınmışdır. Həmin vaxtdan ölkəmizin bütün bölgələrində dekabrın 3-də Beynəlxalq Əlillər günü təntənə ilə qeyd olunur.

Bu il dekabrın 3-də rayonun bir qrup müharibə və əmək əlili, Qarabağ müharibəsi əlilləri Ağstafadakı "Mərasim evi"nə yığışmışlar. Burada Beynəlxalq Əlillər günü münasibətilə tədbir keçirilmişdi. Tədbiri rayon icra hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Lalə Eyyubova açdı. O, müstəqil Azərbaycanda müharibə və əmək əlillərinə, şəhid ailələrinə göstərilən sonsuz qayğıdan, onların mənzil şəraitinin və sosial təminatının yaxşılaşdırılması üçün dövlətimizin həyata keçirdiyi mühüm tədbirlərdən söhbət açmışdır.

Tədbirdə rayon Ağsaqqallar Şurasının sədri Fidovsi Heydərli, Şəhid ailələri və Qarabağ Müharibəsi İctimai Birliyi rayon şöbəsinin sədri Yaqub İsmayılov çıxış edərək Beynəlxalq Əlillər günü münasibətilə rayonun bütün əlillərini təbrik etmiş, onlara can sağlığı, əminamanlıq və firavanlıq arzulamışlar.

Rayon mədəniyyət evi ansamblının üzvləri tədbiri rəngarəng konsert proqramı ilə daha da şənləndirmişlər. Çay, şirniyyat və meyvə süfrəsi ətrafında keçirilən tədbirdə rayon əlillərinin 80 nəfərinə maddi yardım göstərilmişdir.

# Gülərüzlü həkim qız

Həyatda elə bir adam tapılmaz ki, həkimə müraciət etməsin, ona işi düşməsin. İndiki dövrdə isə belə hallara insanlar arasında daha tez-tez təsadüf olunur. Adamın bir yeri ağrıyan kimi heç nəyi, heç kimi gözləmədən özünü həkimə çatdırır, dərdini ona danışır.



Həkimə müraciət edərkən xəstə ilk növbədə onun üzünə baxır, onda gülərüzlülük, mehribanlıq hiss edəndə, ondan xoş sözlər eşidəndə sanki bir anlığa bütün ağrılarını unudur, onu dinləyir.

Ağstafanın tibb müəssisələrində çoxdur belə həkimlər. Onlardan biri də şəhər poliklinikasının həkim endokrinoloqu Sevda Səfiyevadır.

Sevda Səfiyeva 1965-ci ildə Ağstafa şəhərində anadan olmuş, elə burada 24 saylı orta məktəbi əla qiymətlərlə bitirmiş və Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. O, institutu müvəffəqiyyətlə bitirdikdən sonra rayonun Muğanlı, Poylu kəndlərində əmək fəaliyyətinə başlamış, 1991-ci ildən halhazıra kimi isə Ağstafa şəhər poliklinikasında ixtisası üzrə həkim endokrinoloq işləyir.

Sevda Səfiyeva ömrünün 50-ci qışına qədəm qoyur. Əslində bu heç də bir o qədər də çox yaş deyildir. O, bu illər ərzində yüzlərlə xəstəni müayinə etmiş, onların sağlamlığının qorunması üçün əlindən gələn köməyi göstərmişdi.

Sevda həkim hər səhər işə gələndə və poliklinikaya daxil olanda onun kabineti qarşısında dayanıb onu gözləyən xəstələri görəndə qəlbində gərgin bir hiss baş qaldırsa da, onu büruzə vermir və bir anlığa ayaq saxlayıb xəstələrlə görüşür, onlarla haləhval tutur.

Sevda həkimlə iş yerində görüşdük. Nahar fasiləsi olmasına baxmayaraq, o, hələ də xəstələri müayinə edir, onlara məsləhətlər verirdi. Bir qədər gözlədikdən sonra Sevda həkimlə həmsöhbət olduq. Sevdanın özü haqqında danışmağı xoşlamadığını yaxşı bilirdim. Odur ki, Sevdadan işi barədə danışmağı xahiş etdim. Gülərüz həkimin ilk sözü belə oldu:

-Hər bir həkim ona müraciət edən xəstəni təkcə adi insan kimi deyil, həm də özünün ən yaxın dostu, qohumu kimi qəbul etməyi bacarmalı, ona qayğı göstərməlidir. Mən özümün çoxillik təcrübəmdə bu məziyyətlərə daha çox üstünlük vermiş və onun bəhrələrini görmüşəm.

Əvvəllər zob, şəkərli və şəkərsiz diabet xəstəliyi irsi xəstəlik kimi qəbul edilirdi. Lakin bu gün əksər insanların əsəb sistemlərinin normal halda olmaması üzündən şəkərli diabet xəstəliyinə tutulanların sayı xeyli artmışdı. Təkcə belə bir faktı deyə bilərəm ki, əvvəllər ayda ən çoxu diabet xəstəliyinə tutulan 10 xəstə uçota götürülürdüsə, bu gün ay ərzində 20-25 xəstə uçota alınır.

Dövlət başçımız cənab İlham Əliyevi Allah qorusun, onu Azərbaycan xalqının başı üstündən əskik eləməsin. Onun diqqət və qayğısı sayəsində poliklinikamızda vərəm, nevroloji, onkoloji, diabet və digər xəstəliyə tutulanların hamısı pulsuz dərmanla təmin olunur. Bunun müqabilində biz həkimlər də xəstələrə qarşı daha diqqətli olur, onlara lazımi tibbi yardım göstəririk.

Sevda Səfiyeva ilə söhbətimizi yekunlaşdırdıqdan sonra onun kabinetinin qarşısında dayanan xəstələrlə də söhbət etdik. Onların hamısı Sevda həkimdən ağızdolusu danışdılar və ona minnətdarlıq etdilər. Xəstələrin Sevda Səfiyeva haqqında belə xoş sözlər söyləmələri bizdə də xoş təəssürat bağışladı və Sevda xanıma oxucularımız adından biz də minnətdarlığımızı bildirib ondan ayrıldıq.

***İbrahim Əliyev***

## Mehdi Mustafayev-100

# Ana təbiətin loğmanı

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev görkəmli dövlət xadimi, bütün həyatını ana təbiətin qorunmasına, yeni meşələr salınmasına və yaşıllıqların artırılmasına həsr etmiş yorulmaz alim Mehdi Mustafayevin anadan olmasının 100 illiyini geniş qeyd etmək haqqında bu ilin əvvəlində sərəncam imzalamışdı. Həmin sərəncama uyğun olaraq xeyli vaxtdır adlı-sanlı təbiət aliminin, əvəzsiz şəxsiyyətin yubileyini layiqincə qeyd etmək üçün bir sıra tədbirlər görülmüşdür.***

***Kimdir Mehdi Mustafayev?***

Doğrusunu deyək ki, son illərədək rayonumuzda belə bir görkəmli dövlət xadimini, məşhur təbiət alimini tanıyan çox az idi. Yaxın qohum-əqrabası istisna olmaqla, onun barəsində məlumatlar çox yayılmamışdı. Nə yaxşı ki, 5-6 il əvvəl Ağstafanın girəcəyində, Mehdi Mustafayevin adını daşıyan küçənin qurtaracağında görkəmli alimin şərəfinə salınan gözəl bağda onun böyük bir büstü qoyuldu. Həmin bağın və büstün açılışına toplaşan ağstafalılar, rayon ictimaiyyətinin nümayəndələri, mərasimə toplaşan qonaqlar və qonşu rayonların nümayəndələri Mehdi Mustafayev haqqında ətraflı məlumatlar əldə etdilər. Həmin məlumatlardan bir ziyalı kimi, mətbuat işçisi kimi biz də bəhrələndik.

Mehdi Həsən oğlu Mustafayev 1914-cü ildə Tatlı kəndində anadan olmuşdur. Həyata göz açıb dünyanı dərk eləyəndə doğma Tatlının gözəl mənzərəsi, saf havası, can dərmanı olan bulaqlar onun duyan könlünü ram eləmişdi. Saatlarla çəmənliklərdə, düzənliklərdə, çaylaq boyu uzanan seyrək meşəliklərdə gəzməkdən, kəndi doğma bala kimi qucaqlayan bir-birinə söykənmiş dağlara tamaşa etməkdən doymazdı. Yaşının üstünə yaş gəldikcə təbiəti daha çox sevir, bütün günü ağacların altında, gül-çiçəklərin içində, körpə şitillərin yanında olurdu.

Nəhayət məktəb illəri çatdı. Böyük maraq və həvəslə kənd məktəbinə qədəm basmaq istəyəndə amansız həyatın ilk maneəsinə rast gəldi. "Ağa balalarına sovet məktəbində yer yoxdur"- deyə onu kənd məktəbinə qoymadılar. Məcbur olub balaca Mehdini Köçəsgər kəndinə aparıb orada birinci sinfə qoydular. İlk günlər valideynlərinin, uşaqlıq yoldaşlarının, doğma kəndin xiffətini çəksə də, Mehdi bütün çətinliklərə alışdı və bütün fikrini-zikrini kitablara verib oxumağa başladı.

Yel qanadlı illər tez ötüb keçdi. Mehdi yeniyetmə bir oğlan kimi yeddillik təhsilini başa vurub Gəncədə təhsilini davam etdirmək qərarına gəlir. Həmin illərdə bütün ağalar kimi Həsən ağanın da bütün var-dövlətini müsadirə etmişdilər. Ailə elə bir vəziyyətə düşmüşdü ki, hətta Mehdinin təhsil almasına da imkan yox idi. Lakin gənc Mehdi inadından dönmədi, tərcümeyi-halında ağa nəslindən olduğunu gizlədərək Gəncə şəhərindəki Kənd Təsərrüfatı Texnikumuna daxil oldu. Həyatın ağır sınaqlarına mərdliklə sinə gərərək texnikumu bitirdi və həmin il də Həsənbəy Zərdabi adına Gəncə Kənd Təsərrüfatı İnstitutuna müvəffəqiyyətlə imtahan verərək tələbə adı qazandı.

Mehdi Mustafayevin institut həyatı da başa çatdı. İnstitutu əla qiymətlərlə bitirən gənc üzümçü aqronom birbaşa Şamaxı rayonuna təyinat aldı. Orada da üzümçülük üzrə rayonun baş aqronomu vəzifəsinə təyin edildi. Böyük bir həvəslə işə girişən gənc aqronom gecə-gündüz yorulmadan çalışdı, Şamaxıda üzümçülüyün inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəmədi. Bu vəzifədə çalışdığı 4 il ərzində Mehdi Mustafayevin işgüzarlığı, bacarığı ona böyük şöhrət gətirdi. Nəinki Şamaxıda, hətta qonşu rayonlarda, respublikanın üzümçülük təsərrüfatlarında onun barəsində hamının məlumatı vardı.

Bu, rəhbər təşkilatların da nəzərindən qaçmamışdı. Gənc mütəxəssis kimi Mehdi Mustafayevi Şəmkir rayonundakı Qarayer sovxozuna direktor göndərdilər. Bu vəzifədə də ilk gündən gecəsini gündüzünə qatan Mehdi bir an belə rahatlıq tapmadı, sovxoz təsərrüfatını qarış-qarış gəzərək hər şeylə maraqlandı, vəziyyəti öz gözləri ilə gördü. Sonra da sovxozu dirçəltmək, ayağa qaldırmaq üçün təsirli tədbirlər həyata keçirdi.

Təəssüf ki, nəzərdə tutduğu işlərin çoxu yarımçıq qaldı. Həmin ildə alman faşistləri xaincəsinə sovetlər ölkəsinə hücuma keçdilər. Amansız müharibə bir çox arzular kimi, təsərrüfat adamlarının qurub-yaratmaq eşqini də söndürdü. Hər şey cəbhəyə yönəldildi, yaşı çatanlar hamısı müharibəyə səfərbər olundu. Mehdi Mustafayevin də sovxoz direktoru işlədiyi heç bir il tamam olmadı. Başladığı mühüm işləri yarımçıq qoyub zabit paltarı geyməli oldu. 1941-ci ilin sonlarında onu xüsusi dəstənin tərkibində İrana göndərdilər.

İranda müharibə alovları dalğalanmasa da xüsusi dəstə orada çox ciddi iş aparır, müharibənin gedişini diqqətlə izləyir, qonşu ölkədəki vəziyyətə açıq-sayıq nəzarət edirdi. İranın Çalus bölgəsində fəaliyyət göstərən dəstənin komendantı Mehdi Mustafayev idi. O, dəstədə düzgün siyasi iş aparır, ciddi nizam-intizam yaradırdı. Obyektivliyi və prinsipiallığı ilə dəstə üzvlərinin dərin hörmətini qazanmışdı.

Mehdi Mustafayev qələbə müjdəsini də İranda qarşıladı.



Faşistlər məğlub olsa da hələ siyasi müharibə başa çatmamışdı. Ona görə də xüsusi dəstənin üzvləri ilə birlikdə Mehdi Mustafayev də bir il də Çalusda qalıb fəaliyyətlərini davam etdirməli oldu. Nəhayət 1946-cı ildə doğma vətənə qayıtmalı oldu.

İrandan qayıdandan sonra Mehdi Mustafayevi əvvəlki iş yerinə göndərmədilər. Bu dəfə tamam başqa bir vəzifədə işə başlamalı oldu. Onu Azərbaycan Yeyinti Sənayesi və Kənd Təsərrüfatı Nazirliyində şöbə müdirinin müavini təyin etdilər. Lakin bu vəzifədə də çox işləyə bilmədi. Qısa bir vaxtdan sonra Mehdi Mustafayevi Tovuz rayonuna birinci katib vəzifəsinə göndərdilər. Bu böyük etimad bütün varlığı ilə zəhmətə bağlanmış təsərrüfat adamını ürəkdən sevindirdi. Arzusu, fikri, diləyi qurub-yaratmaq olan Mehdi Mustafayev üçün geniş bir əmək meydanı açılırdı.

Bu əmək meydanına nər kimi atıldı Mehdi Mustafayev. Qısa müddətdə Tovuz rayonunun iqtisadi həyatında əsaslı dönüş yaratdı, təsərrüfatlarda məhsul aşıb-daşdı. Respublika rəhbərləri onun işgüzarlığına və bacarığına heyran qalmışdılar. Onun bu keyfiyyətləri Azərbaycan KP MK-nin birinci katibi M.C.Bağırovun nəzərindən yayınmırdı. Birinci katib şəxsən özü bir neçə dəfə Tovuz rayonuna gəlmiş, Mehdi Mustafayevin gördüyü işlərə baxmış və onun iş üsulunu bəyənmişdir. Ən çox da xoşuna gələn o idi ki, rayon partiya komitəsinin katibi kimi Mehdi Mustafayev Tovuzun sosial, iqtisadi, mədəni və təsərrüfat həyatının hərtərəfli, bir-biri ilə əlaqəli şəkildə inkişaf etdirməyə çalışırdı.

Əldə etdiyi nailiyyətlərə görə 1948-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü və Lenin ordeni ilə təltif olundu. Vətən oğlunun gərgin əməyinə verilən ilk yüksək qiymət el-obada bayrama çevrildi. Yüksək mükafat onu tanıyanları, dost-tanışları, həmçinin adını eşidib üzünü görməyənləri ürəkdən sevindirdi. Qəhrəman özü isə onu adi bir xoş xəbər kimi qarşılamışdı. Axı, onun zəhmət eşqi ilə alışıb yanan qəlbi daha böyük xariqələr yaratmaq arzusu ilə döyünürdü.

Ölkə rəhbərliyi də duymuşdu bu eşqi, bu arzunu. Ona görə Bakıya müşavirəyə çağrıldığı günlərin birində ona bildirdilər ki, müşavirədən sonra siz dayanın, rəhbərlik sizi ayrıca qəbul edəcəkdir. İstər-istəməz narahat olmağa başladı ki, görəsən nə məsələdir. Nigarançılığı çox çəkmədi, birinci katib onu qəbul edib birbaşa məqsədini bildirdi. "Yoldaş Mustafayev, daha Tovuza qayıtmayacaqsınız, sabahdan Meşə Təsərrüfatı Nazirliyində işləyəcəksiniz" - dedi. Beləliklə, 1948-ci ildə Mehdi Mustafayevə daha böyük etimad göstərildi. O, respublikanın Meşə Təsərrüfatı Nazirliyində ən yüksək vəzifəyə- nazir vəzifəsinə təyin edildi.

Mehdi müəllim çalışdığı bütün vəzifələrdə ürəklə işləmiş, vəzifəsinin öhdəsindən ləyaqətlə gəlmişdi. Ancaq meşə təsərrüfatı onun üçün ideal bir sahə idi. Uşaq yaşlarından vurulduğu ana təbiət indi onun iş sahəsinə çevrilmişdi.

Meşə Təsərrüfatı Naziri işlədiyi ilk illərdə Mehdi müəllim Ceyranbatan su anbarının yaşıllaşdırılması, Şəki-Zaqatala rayonları ərazisində yeni Tuqay meşəlikləri salınması, Gəncə-Göygöl bölgəsində köhnə meşəliklərin bərpası meşəçi alimin gərgin əməyinin bəhrəsidir. Respublika ərazisində tarlaqoruyucu meşəliklərin salınması, yeni qoruqlar yaradılması təbiətin qorunması sahəsində ən mühüm addımlardan biri idi. Mehdi müəllim bu işin də öhəsindən bacarıqla gəldi. Bununla belə bir an da yorulmaq bilmir, təbiətin qoynundan bir gün də ayrılmırdı. Bəlkə buna görə də yaxın dostlarının onu "təbiətin loğmanı" adlandırmağı təsadüfi deyildi.

Deməк olar ki, Mehdi Mustafayev 1948-ci ildən ömrünün axırına qədər təbiətə xidmət etmək peşəsindən ayrılmadı. Düzdür, 1954-cü ildə Kənd Təsərrüfatı Nazirliyi ilə Meşə Təsərrüfatı Nazirliyinin birləşməsi ilə əlaqədar Mehdi müəllim bir müddət nazir müavini vəzifəsinə keçdi. Ancaq 1960-cı ildə Meşə Təsərrüfatı yenidən Kənd Təsərrüfatı Nazirliyindən ayrıldı və həmin ildən Meşə Təsərrüfatı Komitəsi kimi fəaliyyət göstərməyə başladı. Mehdi Mustafayev isə ömrünün axırınadək komitənin sədri oldu.

Görkəmli dövlət xadimi, tanınmış alim Mehi Mustafayev 1979-cu ildə Bakıda vəfat etmiş və "Fəxri xiyaban"da dəfn olunmuşdur. Onun əməyi dövlət tərəfindən dəfələrlə yüksək qiymətləndirilmişdir. O, müxtəlif illərdə bir neçə orden və medalla təltif olunmuş, bir neçə dəfə Ali Sovetə deputat seçilmişdir. Ürəkdən sevdiyi təbiət bu gün də qayğıkeş övladını unutmur, onun saysız-hesabsız işlərini qoruyub saxlayır. Qədirbilən xalqımız da bu cür oğullarını həmişə yad edir, xatirəsini əziz tutur.

---

Ağstafa rayonunun ümumtəhsil məktəblərində tanınmış mədəniyyət xadimlərinin yubileyləri, xatirə gecələri, ədəbi-bədii gecələr, şair və yazıçıların əsərlərinin təqdimat mərasimləri vaxtaşırı olaraq keçirilir.

Ağstafada yaşayıb-yaradan belə şairlərdən biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü Saqif Qaratorpaqdır.O, Ağstafa rayonunun Köçəsgər kəndində dünyaya göz açmışdır. Şair oxucuların görüşünə ilk dəfə 2006-cı ildə "Bir şamın kölgəsində" kitabı ilə gəlmiş, 2012-ci ildə isə onun "Bir könül varağında" adlı ikinci kitabı nəşr olunmuşdur.

## Saqif Qaratorpağın yeni kitabı

Bu günlər Köçəsgər kənd 1 saylı tam orta məktəbinin akt zalında istedadlı şair Saqif Qaratorpağın "Üç addım" adlı kitabının təqdimat mərasimi keçirilmişdir. Rayon Təhsil Şöbəsinin rəhbərliyi, Azərbaycan Yazıçılar Birliyi Qazax filialının əməkdaşları, yazıçı və şairlər, məktəb pedaqoji kollektivi, yuxarı sinif şagirdləri və valideynlərin iştirak etdiyi tədbiri filialın sədri Barat Vüsal açaraq şair Saqif Qaratorpağın həyat yolundan, yaradıcılığından söhbət açdı. Sonra rayon Təhsil Şöbəsinin müdiri Fərhad Vəliyev çıxış etdi. O, göstərdi ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyatın bütün sahələrində olduğu kimi, mədəniyyət sahəsinə də hədsiz diqqət və qayğı göstərilir.Ağstafa rayonunda da mütəmadi olaraq ümumtəhsil məktəblərində şairlərlə görüşlər, kitab təqdimatları keçirilir.Köçəsgər kəndində yaşayıb-yaradan, eyni zamanda kənd tam orta məktəbində tarix müəllimi işləyən şair Saqif Qaratorpağın kitabının təqdimatının keçirilməsi də həmin tədbirlərin bir növ davamıdır.

Rayon Təhsil Şöbəsinin müdir müavini Sakit İsmayılov, şairlərdən Bahəddin Haçadağlı, Muradxan İsgəndərov, Telman Kürsoy, Mustafa Rasimoğlu, Usta Qafar, Nəriman Mehdixanlı, Şahinə Könül, Prezident təqaüdçüsü, yazıçı Əli Cəfəroğlu, məktəbin müəllimləri Gülbəniz Əzizova, İsmayıl Məmmədov, Qıraq Kəsəmən kənd tam orta məktəbinin dil-ədəbiyyat müəllimi Turan Yaqubəliyev və başqaları öz çıxışlarında istedadlı şairin yaradıcılıq yoluna bir daha nəzər salaraq onunla bağlı maraqlı məqamları vurğuladılar.

Tədbirin aparıcısı, məktəbin riyaziyyat müəllimi Ruhiyyə Hüseynova Saqifin poeziya dünyasına nəzər salaraq şeirləri barədə ətraflı məlumat verdi. Sonra məktəbin şagirdləri şairin müxtəlif şeirlərini xüsusi şövq və həvəslə söylədilər.

***Əli Cəfəroğlu***

## Allah rəhmət eləsin

Firuz Babayev, Şahin Həsənov, Arif Quliyev yaxın dostları Şamil Hüseynova, anası

**Zeynəb xanımın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aydın Hacıyev ailəsi ilə birlikdə yaxın dostu Şamil Hüseynova, anası

**Zeynəb xanımın**

vəfatı ilə əlaqədar kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR:**

**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
*"Ağstafa" qəzetinin jurnalist kollektivi*
*Şəadətnamə № 308*

*Redaksiya heyəti*
*L.Eyyubova, K.Abbasov, V.Əkbərov, İ.Əliyev, N.Mehdixanlı, F.Vəliyev, İ.Mustafayev, A.Tağızadə*

*Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və "Mətbuat firması" mətbəəsində çap olunmuşdur.*

*Ünvan: Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10*
*Tel: 5-14-56*
*mob: (050) 344-26-20*
*Tiraj: 1000*